*R.Sadıqova. Azərbaycan xalqının mədəni-mənəvi tarixində cənub bölgəsinin yeri // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.186-191.*

UOT: 82-1.512.162.

**Reyhanə Sadıqova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*

# AZƏRBAYCAN XALQININ MƏDƏNİ-MƏNƏVİ TARİXİNDƏ CƏNUB BÖLGƏSİNİN YERİ

**Xülasə**

Azərbaycan mədəniyyəti və ədəbiyyatının zənginliyini və rəngarəngliyini şərtləndirən cəhətlər bu coğrafiyanın tipik xüsusiyyətləri, yerli özəllikləri, təbiəti, adət-ənənələri, hətta dialekt və şivələri ilə bağlıdır. Hər bir bölgənin özünəməxsus, lokal xüsusiyyətləri və onların ədəbi-bədii təfəkkür örnəklərində təcəssümü xalqın milli kimliyinin ən bariz ifadəsi olan mədəni və ədəbi nümunələrdə daha parlaq ifadəsini tapmışdır.

Bu baxımdan bölgələrimizdə yaranan mədəni ədəbi mühitin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanın ayrı-ayrı bölgələrinin ictimai-sosial inkişafı ilə yanaşı, mədəni həyatının da tərəqqisi dövlətimizin xarici və daxili siyasətinin ən prioritet məsələlərindəndir, problemin aktuallığı tam aydınlığı ilə üzə çıxar. Azərbaycanın hər bir guşəsi kimi, cənub bölgəsinin də əsrarəngiz təbiəti, maraqlı yerli adət-ənənələri və zəngin ədəbi mühiti özünün unikallığı ilə fərqlənir. Şübhəsiz ki, Azərbaycanın cənub bölgəsinin ədəbi həyatına nəzər saldıqda diqqəti ilk cəlb edən burada XIX əsrin 50-ci illərində yaranıb fəaliyyət göstərmiş "Fövcül-füsəha" poetik məclisinin yaradıcılığıdır.

Məqalədə ədəbi məclislərin fəaliyyəti və regionlarda ədəbi proseslərin gələcək inkişafına təsirindən bəhs olunur.

***Açar sözlər:** Azərbaycan ədəbiyyatı, bölgələrdə ədəbiyyat, poetik məclislər, "Fövcül-füsəha", Mirzə İsmayıl Qasir, çağdaş mədəni-ədəbi mühit*

## Giriş

*Azərbaycan qədim, zəngin və əsrarəngiz milli-mənəvi, mədəni dəyərləri ilə bütün dövrlərdə dünyanın, daha çox da "soyuq" Qərbin diqqətini cəlb edən Şərqin mədəniyyət və elm beşiklərindən biridir. İlkin orta əsrlərdən başlayaraq dünya elminə və bədii düşüncəsinə Əbülhəsən Bəhmənyar Azərbaycani, Xətib Təbrizi, Nəsirəddin Tusi, Əfzələddin Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Məhəmməd Füzuli və adlarını çəkə biləcəyimiz onlarla başqa şəxsiyyəti bəxş etmiş Azərbaycan torpağının hər bir güşəsində əsaslı, möhkəm*

*ənənələrə dayaqlanan elmi, ədəbi məktəblər fəaliyyət göstərmiş, zaman-zaman öz yetirmələrini pərvazlandırmışdır.*

*Azərbaycan mədəniyyəti və ədəbiyyatının zənginliyini və rəngarəngliyini şərtləndirən cəhətlər bu coğrafiyanın tipik xüsusiyyətləri, yerli özəllikləri, təbiəti, adət-ənənələri, hətta dialekt və şivələri ilə bağlıdır. Hər bir bölgənin özünəməxsus, lokal xüsusiyyətləri və onların ədəbi-bədii təfəkkür örnəklərində təcəssümü xalqın milli kimliyinin ən bariz ifadəsi olan mədəni və ədəbi nümunələrdə daha parlaq ifadəsini tapmışdır. Bu baxımdan bölgələrimizdə yaranan mədəni-ədəbi mühitin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanın ayrı-ayrı bölgələrinin ictimai-sosial inkişafı ilə yanaşı, mədəni həyatının da tərəqqisi dövlətimizin xarici və daxili siyasətinin ən prioritet məsələlərindəndir, problemin aktuallığı tam aydınlığı ilə üzə çıxar.*

Azərbaycanın hər bir guşəsi kimi, cənub bölgəsinin də əsrarəngiz təbiəti, maraqlı yerli adət-ənənələri və zəngin ədəbi mühiti özünün unikallığı ilə fərqlənir. Bölgənin ərazisinin yaşıl meşə örtüyü ilə əhatələnməsi, müxtəlif bitki və heyvan növlərinin mövcudluğu, əlverişli landşaft, mineral su ehtiyatları, subtropik iqlim şəraiti və s. buranı vətənimizin digər bölgələrindən fərqləndirən əsas cəhətlərdəndir. Bütün bunlar sözügedən coğrafi regionda turizm sektorunun inkişafına da şərait yaratmışdır ki, bu da öz növbəsində mədəni-mənəvi həyata və yerli-milli xüsusiyyətlərin geniş öyrənilməsinə, digər bölgələrə təsirinə və qarşılıqlı mübadilə nəticəsində zənginləşməyə də səbəb olmuşdur.

Məlum olduğu kimi, Azərbaycanın cənub bölgəsi dedikdə, tərkibinə Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı inzibati rayonlarının daxil olduğu Lənkəran-Astara coğrafi rayonu nəzərdə tutulur. Lənkəran Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər bəxş etmişdir. Ulu Öndər Heydər Əliyev də lənkəranlılarla görüşlərinin birində bunu xüsusi vurğulamışdır: "Siz Azərbaycanın bu gözəl diyarını qurub-yaradanlarsınız, siz bu bölgənin müdrik insanlarının varislərisiniz. Siz Talışxanovlar-generallar sülaləsinin varislərisiniz. Siz ikinci dünya müharisəsində qəhrəmanlıqlar göstərmiş, iki dəfə Sovet İttifaqı qəhrəmanı adı almış general Həzi Aslanovun varislərisiniz, onun həmyerlilərisiniz, onun doğmalarısınız.

Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbaycan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. Siz burada, bu Talış dağlarının ətəyində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmisiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir" [1, s. 2].

Cənub bölgəsinin mədəni-ədəbi tarixinə nəzər saldıqda onun sözün əsl mənasında təkrarolunmazlığı və maraqlı cəhətlərini görməmək olmur. Hər şeydən əvvəl qeyd edək ki, cənub bölgəsinin ədəbi həyatı vahid Azərbaycan ədəbiyyatında gedən ədəbi prosesin daxili tərkib hissəsi kimi ondakı ümumi inkişaf özəlliklərinə malikdir və ayrı-ayrı dövrlərin tipik cəhətlərini özündə əks etdirir. Elə götürək XIX əsr ədəbi prosesinin aparıcı istiqamətlərini müəyyənləşdirən, onun inkişafına təkan verən, ayrı-ayrı şəhər və rayonlarda təşkil edilmiş ədəbi məclisləri. Məlumdur ki, həmin yüzillikdə Gəncədə (sonralar Tiflisdə) "Divani-hikmət", Bakıda "Məcməüş-şüəra", Şamaxıda "Beytüs-Səfa", Qubada "Gülüstan", Lənkəranda "Fövcül-füsəha", Qarabağda "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclisləri təşkil edilmişdi. Bu məclislərin səsi-sorağı təkcə bizim coğrafiyaya deyil, xeyli geniş ərazilərə də yayılmış, üzvləri məşhurlaşmışdı. Ədəbi məclislərin bir-biriləri ilə, eləcə də digər

Azərbaycan şəhərlərində, məsələn Ərdəbildə, Dərbənddə yaşayan şairlərlə əlaqələrinə dair materiallar mövcuddur və mövzu ilə bağlı aparılmış tədqiqatlarda bu məsələlər işıqlandırılmışdır.

Şübhəsiz ki, Azərbaycanın cənub bölgəsinin ədəbi həyatına nəzər saldıqda diqqəti ilk cəlb edən burada XIX əsrin 50-ci illərində yaranıb fəaliyyət göstərmiş "Fövcül-füsəha" poetik məclisinin yaradıcılığıdır. "Fövcül-füsəha" hərfi tərcümədə "gözəl, bəlağətli danışanların dəstəsi, toplusu" anlamına gəlir. "Fövcül-füsəha" XIX əsrdə Azərbaycanda yaranmış ədəbi məclislər içərisində "Divani-hikmət", "Əncüməni-şüəra" və "Gülüstan"dan sonra fəaliyyətə başlayan poetik məclislərdəndir və məclisin fərqli xüsusiyyətlərindən biri burada yalnız söz ustadlarının, şairlərin deyil, eyni zamanda, alim-üləmaların, şeir həvəskarı olan digər peşə sahiblərinin də iştirak etməsi idi. "Fövcül-füsəha"nın fəaliyyəti Nəsrəddin Qarayevin "Poetik məclislər" (1987) kitabında ətraflı işıqlandırılmışdır. Alimin məclis üzvlərinin tərkibinə dair tutarlı faktlara əsaslanaraq verdiyi məlumat ümumilikdə Lənkəranın və cənub bölgəsinin elmi-ədəbi mühitinin inkişafı haqqında dolğun təəssürat yaradır: "Fövcül-füsəha"nın yığıncaqlarında şairlərlə yanaşı, Talış mahalının tarix və etnoqrafiyasından, görkəmli şəxslərinin həyatından bəhs edən "Cəvahirnameyi-Lənkəran"ın (1869) müəllifi Mirzə Səidəli bəy Kazımbəyov, "Tarixi-Lənkəran və Talış" (1892) əsərinin müəllifi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu (1802-1894), bir sıra əxlaqi-tərbiyəvi və astronomiyaya aid "Heyət" kitabının müəllifi Mirzə Ələkbər Axundov və Lənkəran mahalında birinci dəfə yeni tipli məktəbin ilk təşəbbüskarı, Mirzə Sadiq bəy Mehmandarov kimi alim və açıqfikirli ziyalılar iştirak etmişlər. Bunlardan başqa, mahir tarzən, Seyid Əzimin dostu Şirəli bəy Nəsirbəyov, xalq təbabətini gözəl bilən Molla Məhəmməd Həkim (1841-1931) xanəndə və çarıqçı Məmmədqulu, bitkilərdən dərman hazırlayan Molla Məhəmməd Əczaçı, məktəbdar Mirzə İsmayıl Təbrizi (1801-1889), ziyalı Mir Qasım Talışinski, Teymur bəy Bayraməlibəyov (1862-1936) və qeyriləri də boş vaxtlarını həmin məclisdə keçirirdilər" [2, s. 76-77].

Məclisin yaradıcısı dövrünün məşhur şairi, şamaxılı Mirzə İsmayıl Qasir olmuşdur. Ən fəal və tanınmış üzvlərindən isə Molla Ələkbər Aciz, Mirzə İsa Xəyali, Hüseynqulu Şuriş, Mirzə Əziz Əliyev, Molla Ələkbər Aciz, Mirzə İsa Xəyali, Usta Məmmədhəsən Nəccar, Molla Fəttah Şəhban və başqalarının adlarını çəkə bilərik. Məclisin fəaliyyətini dəyərləndirən Flora Xəlilzadə yazır: "Ətraf rayonlardan olan şairlər də bu məclisə gələrək şeirlər oxuyar, ədəbi söhbətlər aparardılar. ...Məclis üzvləri o qədər istedadlı və hazırcavab olurdular ki, saatlarla bir-biri ilə şeirləşirdilər. Bədahətən şeir demək bu şairlərin əsas üstünlüyü idi .... Onların hər birinin yaradıcılığı klassik ədəbiyyatımızın örnək olacaq səhifələrini təşkil edir" [3, s. 7]. Göründüyü kimi, yüzilliyin digər məclisləri kimi burada da söz sərrafları əsasən klassik ədəbi örnəklərin qiraəti ilə məşğul olurdular. Təbii ki, bu zaman şərh və izahlar üzərində fikir mübadilələri də aparılırdı, elə məclislərin yaradılmasının ilkin məqsədi də məhz klassik ədəbiyyatın öyrənilməsi və təbliği idi. Dönəmin ədəbi prosesinin keçilməz məqamlarından biri, şübhəsiz ki, nəzirə yaradıcılığı idi və bu, "şair" adını daşımaq şərəfinə nail olan hər bir qələm sahibi üçün sanki bir sənət imtahanı, özünütəsdiq meydanı idi. Məclislərdə də klassik Azərbaycan şairlərinin qəzəllərinə yazılmış nəzirələr oxunur, müzakirələr aparılır və dəyərləndirilirdi. Təbii ki, məclislər seçilmiş qəzəllərin xanəndələr tərəfindən muğam üzərində səsləndirilməsi ilə müşayiət olunurdu. Təəssüf hissilə qeyd

etmək lazımdır ki, "Fövcül-füsəha" ədəbi məclisinin üzvlərinin yaradıcılığına aid bədii nümunələrin çox az bir qismi bizə gəlib çatmışdır.

"Fövcül-füsəha" ədəbi məclisinin ən çox tanınmış nümayəndəsi onun yaradıcısı və fəal üzvü, ədəbi əlaqələr baxımından da geniş münasibətləri olmuş Mirzə İsmayıl Qasirdir. Mükəmməl ədəbi məktəb keçmiş Qasir dövrünün ziyalı və elmə-sənətə dəyər verən şəxsiyyətlərindən olmuş Sadıq bəy Mehmandarovun dəvəti ilə Lənkərana getmişdir. Onun Lənkəranın ədəbi-ictimai mühiti üçün qiymətli xidmətlərindən biri burada "Üsuli-cədid" ("Yeni üsul") məktəbini açaraq müəllim kimi fəaliyyət göstərməsi idi.

Mirzə İsmayıl Qasirin bədii yaradıcılığının təhlili onu klassik Azərbaycan şeirinin bilicisi, Məhəmməd Füzuli ədəbi məktəbinin davamçısı kimi qiymətləndirməyə əsas verir. Qəzəllərində işlədilən bədii obrazlar, təşbih və istiarələr şairin klassik poetikanın incəliklərinə dərindən yiyələndiyini və şairlik istedadını göstərir. Təsadüfi deyil ki, Seyid Əzim Şirvani Qasiri "şairi-nadirəgöftarü pəsəndikəlam, mürşidi-əhli-vəfa, piri-süxəndan" adlandırmışdır [4, s. 147].

*Qönçə görsə ləbini ağzını pünhan eylər,*
*Lalə tək bağrını ləlin həvəsi qan eylər.*
*Güli-rüxsarinə bülbüllər olubdur mail,*
*Gecə-gündüz bu səbəbdəndir ki, əfqan eylər.* [5, s. 379]

Qasir əsasən eşq-sevgi motivli qəzəllər yazsa da, onun satirik məzmunlu, müasir mövzulara meyil edən, realizm ünsürləri mövcud olan, dövrünün ziddiyyətlərini əks etdirən əsərləri də mövcuddur. Şeirləri əsasən klassik, qismən xalq ədəbiyyatı üslubunda yazılmışdır.

"Fövcül-füsəha"nın üzvlərindən olan Mirzə İsa Xəyalinin əsərləri də dövrün ədəbi mühitinin öyrənilməsi üçün faydalı mənbələrdəndir. Əslən Ərdəbildən olan və əsasən ticarətlə məşğul olan Mirzə İsanın irsindən cünglərdə saxlanılmış şeirləri qalmışdır. Halbuki Nəsrəddin Qarayev yazır ki, "Mirzə İsa Xəyali Azərbaycan və türk dillərində üç-dörd kitab yazmışdır" [2, s. 93]. Lakin Xəyalinin əsərlərindəki əxlaqi-didaktik motivlər, hikmətamiz kəlamlar onun mütəfəkkir dühası haqqında aydın təsəvvür yarada bilir. Xəyalinin ictimai məzmunlu, zəmanəsinin eyiblərini göstərən, maarifçilik ruhunda yazılmış əsərləri də vardır. Şair həyatına dair bəzi məqamları da əsərlərində qələmə almışdır.

*Baxa hər kimsə mənim surətimə nifrət edər,*
*Eylə ki, oldu müsahib, olu nifrətdən uzaq.*
*Bir əcəb gövhərəm əslində, vəli səd əfsus,*
*Düşmüşəm qədrdən avarəvü qiymətdən uzaq.*
*Madəri-mehrü vəfadan doğulan bir bəşərəm,*
*Verməyib dayə mənə şir sədaqətdən uzaq.* [6, s. 333]

Əslində "Fövcül-füsəha" ədəbi məclisinin üzvlərinin əksəriyyətinin yaradıcılığından çox geniş bəhs etmək olar. Lakin təbii ki, bir məqalə daxilində bu məsələləri tam işıqlandırmaq mümkün deyildir.

Azərbaycanın cənub bölgəsinin qədim və zəngin ədəbi ənənələr üzərində yetişən, öz coşğunluğu və qaynar həyatı ilə seçilən ədəbi mühiti varisi olduğu məktəbə sadiq qalaraq onun əsas inkişaf istiqamətlərini davam etdirmiş, müxtəlif dövrlərdə ayrı-ayrı görkəmli şəxsiyyətlər yetirmişdir. Bu ədəbi mühitin yetirmələri hətta başqa şəhər və bölgələrdə yaşayıb-yaratsalar da yerli özünəməxsus kolorit onların əsərlərində həmişə duyulmuşdur. Maraqlıdır ki, 1978-ci ildə Lənkəranda Yazıçılar Birliyinin filialı fəaliyyətə başlayarkən burada yenidən ədəbi məclislərin fəaliyyəti bərpa edilir və ətraf rayonlardan olan söz-sənət adamlarının qatıldıqları bu məclislərdə yeni yaranan əsərlər təqdim edilirdi. Məmmədhüseyn Əliyev, Şəkər Aslan, İltifat Saleh, Əhəd Muxtar, Zülfüqar Qodmanlı, Novruz İbadoğlu, Azad Talışoğlu, Allahverdi Məmmədli, Firudin Ağayev, Ağəddin Mansurzadə, Ayaz Vəfalı, Maarif Teymur, Bəhlul Abdulla, Azadə Musayeva, Camal Yusifzadə, Sevda Əliyeva, Aslan Quliyev, Fəxrəddin Ziya, Zeydulla Ağayev, Zöhrab Zövünlü, Məmməd Kazım, Əlisa Nicat, Sahib Əliyev, Etibar Əhədov, Aliyə Seyidqızı, Ağacəfər Həsənli, Qardaşxan Əziz, İlham İlhami, Hafiz Mirzə, Əhməd Haqsevər, Mehman Qaraxanoğlu, Meyxoş Abdulla, Qardaş Əlişoğlu, Mirhaşım Talışlı, Vaqif Hüseynov, Həbib Səfərov və bu torpaqdan boy atıb öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına dəyərli töhfələr vermiş digər qələm ustaları ədəbi və ictimai mühitdə kifayət qədər yaxşı tanınmışdır.

**Nəticə**

*Cənub bölgəsinin sosial-iqtisadi həyatı kimi, ictimai-ədəbi mühiti də hər zaman dövlətin diqqət mərkəzində olmuş, Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buraya hər səfərlərində regionun elm və sənət adamları ilə də görüşlər keçirmiş və qarşılıqlı fikir mübadilələri aparmışlar. Cənab İlham Əliyev görüşlərinin birində demişdir: "Lənkəran qədim Azərbaycan torpağıdır. Azərbaycanın çox gözəl bir guşəsidir. Zəngin təbiətə, zəngin təbii sərvətlərə malikdir. Amma hesab edirəm ki, siz də mənimlə razılaşarsınız ki, Lənkəranın ən böyük sərvəti onun əhalisidir, lənkəranlılardır, sizsiniz – zəhmətkeş, vətənpərvər insanlardır" [1, s. 2].*

*Müstəqil Azərbaycan dövlətinin apardığı çağdaş mədəniyyət siyasətinin sayəsində, igid övladlarının tükənməz qeyrəti sayəsində ərazi bütövlüyünü bərpa etdikdən sonra bütün ölkəmizdə olduğu kimi, cənub bölgəsində də ədəbi-mədəni mühit yeni bir vüsətlə inkişaf etməkdədir.*

**Ədəbiyyat siyahısı:**


1. Lənkəran Heydər Əliyev siyasətinin işığında. Tərtibçi Əlisəfa Həsənov. Bakı, "Ozan" Nəşriyyatı, 2004. 192 səh.
2. Nəsrəddin Qarayev. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı, AMEA Əlyazmalar İnstitutu, 2012. 326 səh.
3. Flora Xəlilzadə. Cənub bölgəsinin ədəbi həyatı. / Azərbaycan. 2009. 2 oktyabr, s. 7. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_oktyabr2009/91532.htm
4. Seyid Əzim Şirvani. Əsərləri. 2 cilddə, II c Bakı, "Şərq-Qərb", 2005.

5. Min beş yüz ilin Oğuz şeiri. Antologiya. Tərtibçi Anar. I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, 1999.

6. XIX əsr Azərbaycan şeiri antologiyası. Tərtib edən və ön sözün müəllifi Zaman Əsgərli. Bakı, "Şərq-Qərb", 2005.

7. http://www.anl.az/down/meqale/kaspi_az/2018/sentyabr/606036.htm

8. https://web.archive.org/web/20160305013616/http://www.anl.az/el/latin_qrafikasi/ea/az.an.pdf

9. https://ia600603.us.archive.org/28/items/MinBeshYuzIlinOguzSheiriAntologiyasiNazimIbrahimov/Min_Besh_Yuz_Ilin_Oguz_Sheiri_Antologiyasi_Nazim_Ibrahimov.pdf

**Reyhana Sadiqova**

**The place of Southern region in the cultural-spiritual history of the Azerbaijani people**

The wealth and diversity of Azerbaijani culture and literature is attributed to its geography, local features, nature, customs, and even dialects. The cultural and literary examples, which are the most evident expressions of the people's national identity, have found its brighter reflection in the distinctive, local features of each region and their expression in samples of literary and artistic thinking. In this regard, the study of the cultural and literary environment in our regions is of great importance. The urgency of the problem is evident, especially when we consider that, including the social development of different regions of Azerbaijan, the advancement of cultural life is one of the top goals of our state's foreign and domestic policy.

The fascinating landscape, unique local traditions, and rich literary environment of the Southern region, like every part of Azerbaijan, are unique. The first thing that comes to mind when it comes to the literary life of Southern region of Azerbaijan, is the activity of the literary gathering "Fovjul-fusaha", which was founded and functioned here in the 1850 s.

In the article is discussed the activity of the literary gathering and its influence on the future development of the literary process in the region.

***Keywords:*** *Azerbaijani literature, literature in the regions, Literary gatherings, "Fovjul-fusaha", Mirza Ismail Qasir, contemporary cultural and literary environment*

Akademik **Teymur Kərimli** tərəfindən çapa tövsiyə olunmuşdur.